# Kəndlərimiz yeni inkişaf dövrünü yaşayır

***Prezident İlham Əliyevin əhalinin problemlərinin yerində öyrənilməsi, həll edilməsi, vətəndaş-məmur münasibətlərində şəffaflığın təmin olunması barədə tapşırıqları Qəbələ rayonunda daim diqqət mərkəzində saxlanılır.***

***Ölkə başçısının tövsiyələrinə uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yerlərdə mütəmadi vətəndaşlarla görüşür, onların problemlərini dinləyir, təklif və qayğıları ilə maraqlanır, həlli istiqamətində müvafiq tədbirlər görür.***

## Bayramkoxalı kəndi

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Bayramkoxalı kəndində görüş-qəbulu keçirilib.***

***Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, işıq, qaz təchizatı, yol tikintisi, suvarma sistemləri və digər xidmət təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***

Görüş-qəbulu açan rayon icra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə gedən quruculuq işlərindən, iqtisadi və sosial sahədə həyata keçirilən nəhəng layihələrdən danışıb. Kəndin təbii qazla, daimi elektrik enerjisi, içməli və suvarma suyu ilə tam təmin olunduğunu diqqətə çatdıran RİH-nin başçısı çıxışında Bayramkoxalı sakinlərinin tarixən əkinçilik, maldarlıq, baramaçılıq və sair kənd təsərrüfatı sahələri ilə məşqul olduqlarını və bu sahədə qabaqcıl ənənələrə yiyələndiklərini bildirib.



Kifayət qədər olan münbit torpaq sahələrindən Bayramkoxalıda məqsədyönlü istifadə edildiyini vurğulayan RİH-nin başçısı ölkə Prezidentinin qeyri-neft sektorunun inkişaf etdirilməsi barədə tapşırıqlarının layiqincə yerinə yetirilməsi istiqamətində yaşayış məntəqəsində xeyli iş görüldüyünü, dövlət tərəfindən aqrar sektorunun inkişafına göstərilən diqqət və qayğıya kənd əhalisinin əməli işlə cavab verdiklərini deyib. Qeyd olunub ki, Bayramkoxalıda bu gün taxılçılıq, maldarlıq məhsullarının istehsalı, baramaçılıq yüksələn templə inkişaf edir.

Görüş-qəbulda təhsil, səhiyyə, yol istismarı, suvarma sistemləri, qaz, enerji təchizatı və digər xidmət təşkilatlarının rəhbərləri kənddəki bu sahələrə dair mövcud vəziyyət barədə məlumat veriblər.

Sonra kənd sakinləri dinlənilib. Çıxış edənlərdən Vəlixan Orucov, Musa Musayev, Nadir Qəhrəmanov, Habil Musayev, Hilal Əkbərov, Zakir Salehov və digərləri kəndli əməyinə verilən yüksək qiymətə görə ölkə başçısı İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, burada əhalinin rifahının yaxşılaşmasında əhəmiyyətli rol oynayan baramaçılıq kimi gəlirli bir sahənin yenidən canlandırılması kəndlilərin ürəyincə olub. Çünki barama məhsulu qısa müddətdə başa gəlir və emal müəssisələri tərəfindən yaxşı qiymətə alınır.

Görüş-qəbul iştirakçıları Hacıalılı-Mamaylı-Bayramkoxalı yolunun asfaltlaşdırılması, Dəmiraparan çayının kəndin ərazisindən keçən hissəsinə bənd vurulmasını, yeni artezian quyusunun qazılmasını, məktəbin əsaslı təmir olunmasını, yeni yaşayış massivinə qaz xəttinin çəkilməsini və



işıq dirəklərinin dəyişdirilməsini xahiş ediblər.

Görüş-qəbulda səslənən təklif və müraciətlərin öyrənilib müvafiq tədbirlər görülməsi ilə bağlı RİH başçısı tərəfindən aidiyyatı vəzifəli şəxslərə tapşırıqlar verilib.

## Tövlə kəndi

**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu Tövlə kənd sakinləri ilə keçirilib.**

**Tədbirdə rayonun hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak ediblər.**

Görüşdə RİH-nin başçısı kənd sakinlərinə respublikamızın sosial-iqtisadi inkişafından, ölkə başçısı tərəfindən aparılan sosial islahatlardan danışıb. Bildirilib ki, həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş quruculuq işləri aparılır - yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir.



RİH-nin başçısı Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar nəticəsində, ölkədə yeni-yeni istehsal və emal müəssisələrinin açıldığını, yeni iş yerlərinin yaradıldığını və görülən bütün bu işlərin, həyata keçirilən tədbirlərin yalnız bir amala - əhalimizin yaxşı yaşamasına, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət etdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, rayonumuzun əhalisi özünüməşğulluğun təmini istiqamətində də səylərini genişləndirməli, xüsusilə strateji əhəmiyyətə malik kənd təsərrüfatı sahələrinin, o cümlədən baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişafına diqqəti artırmalıdır.

Sonra sakinlər dinlənilib. Onlar rayonumuza göstərilən diqqət və qayğıya, aparılan abadlıq və quruculuq işlərinə görə Prezident İlham Əliyevə öz dərin minnətdarlıqlarını



bildiriblər.

Çıxış edənlərdən Ədalət Tacəddinov, Nəhayət Abdusalamova, Rəfael Əzəmmədov, Fərman Quliyev və başqaları kəndə qaz xəttinin çəkilməsini, işıq xətlərinin təmiri işinin başa çatdırılmasını, Hacıalılı-Tövlə yolunun asfaltlaşdırılmasını və yaşayış məntəqəsinin internetlə təmin edilməsini xahiş ediblər.

Görüş zamanı kənd sakinlərinin qaldırdıqları məsələlərin həlli ilə bağlı RİH-nin başçısı tərəfindən aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

## Qaradeyin kəndi

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu Qaradeyin kəndində keçirilib.***

***Rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatları rəhbərlərinin və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi tədbirdə Səbuhi Abdullayev Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində rayonun sosial-iqtisadi inkişafı ilə bağlı dövlət tərəfindən görülən işlər barədə görüş iştirakçılarına ətraflı məlumat verib.***

RİH-nin başçısı çıxışında əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təchiz olunduğunu, yol infrastrukturunun yenidən qurulduğunu və aqrar sahədə mühüm layihələrin həyata keçirildiyini deyib.



Qeyd olunub ki, son illər rayonumuzun hər yerində olduğu kimi Qaradeyində də müəyyən işlər görülüb. Ərazidə yeni artezian quyusu qazılıb, kənd tam orta məktəbi üçün əlavə olaraq 80 yerlik modul tipli məktəb binası tikilərək istifadəyə verilib. Xüsusilə kənd təsərrüfatı sahəsində görülən işlərin daha intensiv olduğu, ölkə başçısının müvafiq sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən güzəştlərdən söhbət açılıb və bütün bunların müsbət nəticələr verdiyi, əhalinin kənd təsərrüfatı işlərinə marağının daha da artdığı, eyni zamanda adamların məşğulluğuna geniş imkanlar yarandığı diqqətə çatdırılıb.

Görüşdə kənd sakinləri ölkə başçısı tərəfindən onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndiriblər.

Çıxış edənlərdən Eynulla Rəhimov, Mübariz Mehdiyev, Şərafət Rəhimova, Ərziman Yusifov,



Asim Mirzəyev və başqaları bir qrup aztəminatlı ailələlərin işlə təmin olunması, kənddə yeni artezian quyusunun qazılması, kənd yolunun asfaltının yenilənməsi və avtobus dayanacağının quraşdırılması barədə təkliflər irəli sürüblər.

Rayon icra hakimiyyətinin başçısı görüşdə səsləndirilmiş təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə konkret tapşırıqlar verib.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto)**